**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**

# AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ TİCARƏTİNİN GÖMRÜK STATİSTİKASI

Bülleten

**2026-cı ilin I rübü**

# MÜQƏDDİMƏ

“Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası” bülleteninə gömrük nəzarəti altında respublikanın gömrük sərhədini keçən mallar və nəqliyyat vasitələrinə dair məlumatlar daxil edilmişdir.

Bülleten Dövlət Gömrük Komitəsinin yerli gömrük orqanları tərəfindən rəsmiləşdirilən gömrük bəyannamələri əsasında tərtib edilmişdir.

Bülletendə Azərbaycan Respublikası xarici ticarətinin ümumi göstəriciləri, ölkələr və ölkə qrupları, mal qrupları (Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının iki rəqəmli kodu), mal mövqeləri (Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının dörd rəqəmli kodu) və ölkələr, ölkələr və mal mövqeləri üzrə ixrac və idxala dair göstəricilər, həmçinin Müstəqil Dövlətlər Birliyi və Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələrinə dair məlumatlar öz əksini tapmışdır.

Gömrük bəyannamələrinin işlənməsi və yekun cədvəllərin hazırlanması “Xarici ticarətin gömrük statistikasının metodologiyası”nın əsas müddəalarına müvafiq olaraq həyata keçirilmişdir. İxrac və idxalın dəyər göstəriciləri ABŞ dolları ilə ifadə olunmuşdur. Bəzi hallarda yekunla toplananların cəmi arasında yaranan cüzi fərq göstəricilərin yuvarlaqlaşdırılması ilə əlaqədardır.

Statistik nəşr rüblük bülleten və illik məcmuə şəklində çap olunur.

Bülleten Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Statistika İdarəsi tərəfindən hazırlanmışdır.

Bülletendə istifadə olunan şərti işarələr:

“ – ” - məlumat yoxdur;
“ 0.0” - məlumat kiçik kəmiyyətdir.

Ölkə qrupları

Bülletendə aşağıdakı ölkə qruplarından istifadə olunur: Müstəqil Dövlətlər Birliyi (MDB), Avropa İttifaqı (Aİ), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Asiya Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT), Neft İxracatçı Ölkələr Təşkilatı (OPEK), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM).

Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olan ölkələr: Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova Respublikası, Özbəkistan, Rusiya Federasiyası, Tacikistan, Türkmənistan, Ukrayna.

Avropa İttifaqına (Aİ) daxil olan ölkələr: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Xorvatiya, İrlandiya, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olan ölkələr: Almaniya, Amerika Birləşmiş Ştatları, Avstraliya, Avstriya, Belçika, Böyük

Britaniya, Çexiya Respublikası, Çili, Danimarka, Estoniya, Finlandiya, Fransa, İrlandiya, İslandiya, İsrail, İspaniya, İsveçrə, İsveç, İtaliya, Kanada, Koreya Respublikası, Lüksemburq, Macarıstan, Meksika, Niderland, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Türkiyə, Yaponiya, Yeni Zelanda, Yunanıstan.

Asiya Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatına (ASİƏT) daxil olan ölkələr: Avstraliya, Amerika Birləşmiş Ştatları, Bruney-Darüssalam, Çili, Çin, Çinin xüsusi inzibati rayonu Honkonq, Filippin, İndoneziya, Kanada, Koreya Respublikası, Malayziya, Meksika, Papua-Yeni Qvineya, Peru, Rusiya Federasiyası, Sinqapur, Tailand, Tayvan (Çinin əyaləti), Vyetnam, Yaponiya, Yeni Zelanda.

Neft İxracatçı Ölkələr Təşkilatına (OPEK) daxil olan ölkələr: Anqola, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Ekvador, İraq, İran İslam Respublikası, Küveyt, Qətər, Liviya, Nigeriya, Səudiyyə Ərəbistanı, Venesuela.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) daxil olan ölkələr: Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova Respublikası, Rumıniya, Rusiya Federasiyası, Serbiya, Türkiyə, Ukrayna, Yunanıstan.

İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) daxil olan ölkələr: Azərbaycan, Əfqanıstan, İran İslam Respublikası, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkiyə, Türkmənistan.

Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilata (GUAM) daxil olan ölkələr:

Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna.